AZƏRBAYCAN RESPUBLİKASININ MƏNZİL İNŞAATI DÖVLƏT AGENTLİYİ

MİDA

GÜZƏŞTLİ MƏNZİL SİSTEMİ

## Satış modulundan istifadəyə dair

# TƏLİMAT

Bakı şəhəri
2019

**Mündəricat**

1 Giriş ... 4

2 İstifadəçinin “Satış / mənzillər” bölməsinə daxil olması ... 10

3 “Seçimlər” mərhələsi ... 11

4 Xəritə üzərində mənzil seçimi üsulu ... 13

5 Parametrlər üzrə mənzil seçimi üsulu ... 21

6 Ünvan üzrə mənzil seçimi üsulu ... 25

7 Mənzilə baxış mərhələsi ... 28

8 Ərizənin təqdim edilməsi mərhələsi ... 29

**DİQQƏT:**

**“Güzəştli mənzil” sisteminin xidmətlərindən istifadə “Google Chrome” və ya “Opera” brauzerləri vasitəsilə mümkündür.**

İstifadəçi tərəfindən mənzil sifarişi ərizəsinin təqdim edilməsi üçün kompüterdə **elektron imzanın** (Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan Məlumat Hesablama Mərkəzi tərəfindən verilən elektron imzalar üçün) **işləməsini təmin edən proqramların mövcud olması zəruridir**:

- “EnterSafe PKİ Manager” - http://www.e-imza.az/uploads/instructions/e-gov_portala_daxil_olmaq.pdf
- “Yeni onlayn imzalayıcı” - http://www.e-imza.az/az/software
- Mərkəz sertifikatları - http://www.e-imza.az/az/software

**Qeyd (1): Mənzil sifarişi ərizəsinin təqdim edilməsi, alqı-satqı müqaviləsinin rəsmiləşdirmə tarixinin təyin olunması və mənzil sifarişi ərizəsinin təqdim edilməsi ilə bağlı sonrakı prosedurlara dair istifadəçinin elektron kabinetinə müvafiq bildirişlər göndəriləcək. Bundan əlavə, istifadəçiyə elektron poçt ünvanı və (və ya) sms vasitəsilə həmin bildirişlərin göndərilməsi barədə müvafiq məlumatlar veriləcək.**

**Qeyd (2): Azərbaycan Respublikası Prezidentinin 16.11.2016-cı il tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası”na uyğun olaraq mənzilin alqı-satqı müqaviləsi 15 (on beş) iş günü müddətində bağlanmalıdır.**

# 1 Giriş

Bu təlimat "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlara (*bundan sonra "istifadəçilər"*) sistem vasitəsilə mənzil seçməkdə köməklik göstərmək məqsədilə hazırlanmışdır.

**Azərbaycan Respublikası Prezidentinin 16.11.2016-cı il tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş Qaydaya** uyğun olaraq mənzillərin satışı barədə elan satışın başlanması tarixinə ən azı 30 (otuz) gün qalmış verilməli, binada mənzillərin güzəştlə satışının başlanması tarixi və müddəti barədə, o cümlədən bina, mənzil və satış şərtləri barədə təfərrüatlı məlumatları əldə etmək üçün internet saytın ünvanını özündə əks etdirməlidir. İstifadəçilər internet sayta daxil olaraq layihəyə dair məlumatlar ilə (ümumi görüntülər, binaların tipi, mənzillərin planları və s.) tanış ola bilərlər.

Həmin elanın verilməsi barədə istifadəçilərə elektron poçt və (və ya) sms vasitəsilə müvafiq məlumat göndərilir (Şəkil 1).


Vətəndaş
Ş/V seriyası, nömrəsi, FİN
AZE 4352367 43F6SV3
Soyadı, adı, atasının adı
MƏMMƏDOV FAZİL İLHAM OĞLU
Doğulduğu tarix və yer
06/10/1987, AZƏRBAYCAN, BAKI şəh.
Ünvan
AZƏRBAYCAN, BAKI şəh., FİKRƏT ƏMİROV küç, EV 42, m. 123
Ş/V etibarlıq periodu
26/08/2015 - 30/08/2025
Ailə statusu
Evli
Yenilə
"Güzəştli mənzil" kalkulyatoru
İpoteka kalkulyatoru
Satış modulu üzrə
PDF təlimat
Video təlimat
Gözləmə qaydasında mənzil seçiminə dair
PDF təlimat
Video təlimat
İlkin razılıq qərarının alınmasına dair
PDF təlimat
Video təlimat
XXXX
Satış tarixi
Güzəştli mənzillərin satışı XX.XX.XXXX-cu il saat XX:XX-dan etibarən XX.XX.XXXX-cu il saat XX:XX-dək davam edəcəkdir
Bildirişlər 1
Gözləmə qaydasında mənzillərin seçimi XX.XX.XXXX-cu il saat XX:XX-dan etibarən XX.XX.XXXX-cu il saat XX:XX-dək davam edəcəkdir
Sorğular
İlkin razılıq qərarı

Şəkil 1

İstifadəçi öz elektron kabinetində “Güzəştli mənzil” kalkulyatoru” bölməsinə daxil olduqda, mənzilin satış qiymətini və ilkin ödəniş məbləğini müvafiq xanalarda qeyd edərək – kredit məbləği, əlavə endirim məbləği və əlavə endirimdən sonra mənzilin satış qiyməti barədə məlumatlar ilə tanış ola bilər (Şəkil 2).




Şəkil 2

İstifadəçi “İpoteka kalkulyatoru” bölməsində məlumatları müvafiq xanalarda qeyd edərək - alınan evin ehtimal olunan qiyməti, kreditin maksimal məbləği, minimal ilkin ödəniş və aylıq ödəniş barədə məlumatlar ilə tanış ola bilər (Şəkil 3).

**Qeyd (3): “Güzəştli mənzil” kalkulyatoru” və “İpoteka kalkulyatoru” bölmələri satış modulunun bütün mərhələlərində istifadə üçün aktiv olacaq.**




Şəkil 3

Mənzillərin satışı barədə elan verildikdən sonra istifadəçinin elektron kabinetində “Satış / mənzillər” bölməsində satışın başlama tarixi və müddəti barədə məlumatlar əks olunacaq. İstifadəçi bu bölməyə daxil olduqda satış barədə elan ilə tanış ola bilər (Şəkil 4).




Şəkil 4

Mənzillərin satışının başlanmasına 24 saat qalmış “Satış – mənzillər” bölməsində məlumat xarakterli geri sayım göstərilir (Şəkil 5). Geri sayım başa çatdıqda həmin bölmədə “Satış başlayıb” düyməsi avtomatik aktivləşir (Şəkil 6).




Şəkil 5

## 2 İstifadəçinin “Satış / mənzillər” bölməsinə daxil olması

Mənzillərin satışının başlanılması zamanı istifadəçinin elektron kabinetində “Satış / mənzillər” bölməsində satışın başlanılmasına dair xəbərdarlıq əks olunduqdan sonra İstifadəçi bu bölməyə daxil olaraq “Seçimlər” mərhələsinə yönəldilir (Şəkil 6, 7).




Şəkil 6

# 3 “Seçimlər” mərhələsi

“Seçimlər” mərhələsində istifadəçi verilən elana uyğun ödəniş üsulunu, mənzil seçimi üsulunu (*xəritə üzərində, parametrlər üzrə və ya ünvan üzrə*) və layihəni seçdikdən sonra müvafiq “CAPTCHA” kodunu daxil etməli və “Növbəti” düyməsini sıxmalıdır (Şəkil 7).

**Qeyd (4):** Müvafiq xanada əks olunan “CAPTCHA” kodu **yalnız ingilis hərfləri** ilə **(böyük və ya kiçik hərflərdən istifadə etməyiniz fərq etmir)** daxil edilməlidir.




Şəkil 7

**Qeyd (5):** "Güzəştli mənzil" sistemində barəsində elan verilmiş mənzilin seçimi zamanı mənzilin dəyərinin **ipoteka krediti hesabına ödəniş üsulunu yalnız ilkin razılıq qərarını almış və "Güzəştli mənzil" sistemindəki elektron kabinetində yerləşdirilməsini təmin etmiş şəxs seçə bilər**. Bununla əlaqədar olaraq, istifadəçinin elektron kabinetində "İlkin razılıq qərarı" bölməsi yaradılmışdır.

**Qeyd (6):** Satış modulunda səhifədən səhifəyə keçid zamanı ekranda həmin səhifələrin açılmasını göstərən **işarə** əks olunur (Şəkil 8).




Şəkil 8

# 4 Xəritə üzərində mənzil seçimi üsulu

4.1. İstifadəçi ödəniş üsulunu, “Xəritə üzərində” mənzil seçimi üsulunu və layihəni seçdikdən sonra müvafiq “CAPTCHA” kodunu daxil etməli və “Növbəti” düyməsini sıxmalıdır (Şəkil 9).

“Növbəti” düyməsi sıxıldıqdan sonra istifadəçi “Layihə” hissəsinə keçir.




Şəkil 9

4.2. “Layihə” hissəsində istifadəçi seçdiyi layihənin xəritə üzərində ümumi görünüşünü və satışda olan mənzillərin hansı binalarda yerləşdiyini görür. Satışda olan mənzillərin yerləşdiyi binaların üzərində sarı rənglə işarələnmiş bina nömrələri qeyd olunur. Bu hissədə istifadəçi xəritə üzərində binanı seçmək üçün həmin binanın üzərindəki nömrəni sıxmalıdır (Şəkil 10).




Şəkil 10

4.3. İstifadəçi xəritə üzərində binanı seçdikdə səhifənin sağ hissəsində həmin binanın yerləşdiyi kompleksin ünvanını, binanın nömrəsini, binanın mərtəbə sayı barədə məlumatı və həmin zaman üzrə satışda olan mənzillərin sayını görəcək. Qeyd olunan məlumatlarla tanış olduqdan sonra istifadəçi müvafiq "CAPTCHA" kodunu daxil edib "Növbəti" düyməsini sıxmalıdır (Şəkil 11).




Şəkil 11

4.4. Yeni açılmış səhifədə istifadəçi istədiyi mərtəbəni seçə bilər və mərtəbəyə uyğun olaraq satışda olan mənzillərin sayı barədə məlumatları görəcək. Burada istifadəçi mərtəbəni seçib, "Növbəti" düyməsini sıxmalıdır (Şəkil 12).




Şəkil 12

4.5. Yeni açılmış səhifədə istifadəçinin seçdiyi mərtəbənin planı əks olunur. Səhifənin yuxarı hissəsində aşağıdakı və ya yuxarıdakı mərtəbənin planına baxmaq üçün müvafiq düymələrə sıxmaq imkanı mövcuddur. Həmin düymələr sıxıldıqda müvafiq mərtəbəyə keçid baş verərək, həmin mərtəbənin planı ekranda əks olunacaq (Şəkil 13).




Şəkil 13

4.6. Həmin səhifədə mərtəbə planı üzərində mənzilin statusundan asılı olaraq sarı (*digər istifadəçi tərəfindən baxılır*) və ya boz (*digər istifadəçi tərəfindən seçilmiş*) rənglə işarələnmiş mənzillər əks oluna bilər. Bu mənzillərə baxış keçirmək imkanı həmin zaman üzrə məhdudlaşdırılır. İstifadəçi mənzillərin statusları barədə məlumatları real vaxt rejimində yeniləyə bilər. Bunun üçün səhifənin yuxarı hissəsində "Yenilə" düyməsi sıxılmalıdır (Şəkil 14).




Şəkil 14

4.7. İstifadəçi mərtəbə planında üzərində məhdudiyyət olmayan mənzili seçdikdə (həmin mənzil göy rənglə işarələnəcək), həmin mənzilə baxış keçirə bilər. Bundan əlavə səhifənin sağ hissəsində qeyd olunan cədvəldə üzərində məhdudiyyət olmayan mənzili seçmək imkanı mövcuddur. Səhifənin sağ hissəsində hər mənzilin təmir növünə dair məlumatlar qeyd olunur (Şəkil 15).

İstifadəçi mənzilə baxış keçirdiyi müddət ərzində digər istifadəçilərin həmin mənzilə baxış keçirmək imkanı məhdudlaşdırılacaq.




Şəkil 15

**Mənzilə baxış keçirilməsinə və ərizənin təqdim olunmasına dair məlumatlar "*Mənzilə baxış mərhələsi*" adlı hissədə ətraflı şəkildə qeyd olunmuşdur.**

**Qeyd (7):** "Xəritə üzərində" axtarış üsulundan istifadə zamanı **satışda mənzil olmadıqda** axtarışın ilkin mərhələsində müvafiq xəbərdarlıq əks olunur (Şəkil 16).




Şəkil 16

# 5 Parametrlər üzrə mənzil seçimi üsulu

5.1. Parametrlər üzrə seçim etmək üçün istifadəçi səhifə üzərində ödəniş üsulunu, “Parametrlər üzrə” axtarış üsulunu və layihəni seçdikdən sonra müvafiq “CAPTCHA” kodunu daxil etməli və “Növbəti” düyməsini sıxmalıdır (Şəkil 17).




Şəkil 17

5.2. Açılan səhifədə istifadəçi mənzilin yerləşdiyi binanın tipi, mərtəbə aralığı, təmir növü və otaq sayına görə axtarış edə bilər (Şəkil 18).




Şəkil 18

5.3. Mənzilin parametrləri seçildikdən (*bu hissədə bütün bina tipləri, təmir növləri, otaq sayı və müvafiq olaraq bütün mərtəbə aralıqları seçilə bilər*) və müvafiq "CAPTCHA" kodu daxil edildikdən sonra axtarışın nəticəsində satışda olan mənzillərin siyahısı əks olunur. İstifadəçi siyahıda qeyd olunan mənzillərin birini seçib, həmin mənzilə baxış keçirə bilər (Şəkil 19).




| Bina | Giriş | Mərtəbə | Mənzil | Otaq sayı | Təmir növü | Sahə, m² | Qiymət, AZN |
|---|---|---|---|---|---|---|---|
| 1 | 1 | 3 / 12 | 11 | 2 | 1 | 56.98 - 70.44 | XXXXX |
| 1 | 1 | 3 / 12 | 15 | 2 | 1 | 56.98 - 70.44 | XXXXX |
| 1 | 1 | 3 / 12 | 14 | 3 | 1 | 69.94 - 84.47 | XXXXX |
| 1 | 1 | 3 / 12 | 12 | 3 | 1 | 69.94 - 84.47 | XXXXX |
| 1 | 1 | 4 / 12 | 16 | 2 | 1 | 56.98 - 70.44 | XXXXX |
| 1 | 1 | 4 / 12 | 20 | 2 | 2 | 56.98 - 70.44 | XXXXX |
| 1 | 1 | 4 / 12 | 19 | 3 | 2 | 69.94 - 84.47 | XXXXX |
| 1 | 1 | 4 / 12 | 17 | 3 | 2 | 69.94 - 84.47 | XXXXX |
| 1 | 1 | 5 / 12 | 21 | 2 | 2 | 57.55 - 70.44 | XXXXX |
| 1 | 1 | 5 / 12 | 25 | 2 | 2 | 57.55 - 70.44 | XXXXX |
| 1 | 1 | 5 / 12 | 22 | 3 | 2 | 70.09 - 84.47 | XXXXX |
| 1 | 1 | 5 / 12 | 24 | 3 | 2 | 70.09 - 84.47 | XXXXX |

Şəkil 19

**Mənzilə baxış keçirilməsinə və ərizənin təqdim olunmasına dair məlumatlar "*Mənzilə baxış mərhələsi*" adlı hissədə ətraflı şəkildə qeyd olunmuşdur.**

**Qeyd (8):** “Parametrlər üzrə” axtarış üsulundan istifadə zamanı **qeyd edilmiş parametrlərə cavab verən mənzil olmadıqda** müvafiq xəbərdarlıq əks olunur (Şəkil 20).




Şəkil 20

# 6 Ünvan üzrə mənzil seçimi üsulu

6.1. Bu üsul ilə seçim etmək üçün istifadəçi səhifə üzərində ödəniş üsulunu, “Ünvan üzrə” mənzil seçimi üsulunu və layihəni seçdikdən sonra müvafiq “CAPTCHA” kodunu daxil etməli və “Növbəti” düyməsini sıxmalıdır (Şəkil 21).




Şəkil 21

6.2. Açılan səhifədə istifadəçi istədiyi mənzilin dəqiq ünvanını qeyd etməklə, həmin mənzilə baxış keçirə bilər (Şəkil 22).




Şəkil 22

Bunun üçün bina nömrəsi və mənzil nömrəsi müvafiq xanalarda seçildikdən və “CAPTCHA” kodu daxil edildikdən sonra “Axtar” düyməsi sıxılmalıdır. İstifadəçi tərəfindən axtarılan mənzil satışda olduğu halda istifadəçi “Növbəti” düyməsini sıxaraq həmin mənzilə baxış keçirə bilər (Şəkil 23).




Şəkil 23

# 7 Mənzilə baxış mərhələsi

7.1. Mənzilə baxış keçirmək üçün ayrılan müddət ərzində istifadəçi açılan səhifədə qeyd olunan mənzilin planı ilə tanış ola bilər. Bundan əlavə, mənzil barədə daha təfərrüatlı məlumatları (*mərtəbə planı üzərində mənzilin cəhəti, mənzilin hansı istiqamətdə yerləşdiyini göstərən kompas işarəsi və s.*) əldə etmək üçün səhifənin sol hissəsində “Mənzilin planı” düyməsini sıxaraq “PDF” formatında faylı yükləmək imkanı mövcuddur (Şəkil 24).

**Qeyd (9):** İstifadəçi müəyyən edilən vaxt ərzində mənzil seçimini təsdiq etməlidir. Əks halda istifadəçi əvvəlki səhifəyə yönəldiləcək və mənzil digər istifadəçi tərəfindən seçilə biləcək (Şəkil 24).

Mənzil seçimini təsdiq etmək üçün istifadəçi səhifənin aşağı hissəsində “Təsdiq et” düyməsini sıxmalıdır (Şəkil 24).




Şəkil 24

**Mənzil seçimi təsdiq edildikdə istifadəçi “*Ərizənin taqdim edilməsi mərhələsi*”nə yönəldilir.**

# 8 Ərizənin təqdim edilməsi mərhələsi

8.1. İstifadəçi göstərilən ərizədə mənzil planını, dövlət qeydiyyat sənədini və agent banklara dair məlumatları “PDF” formatında yükləmək imkanına malikdir (Şəkil 25).




Şəkil 25

**Qeyd (10):** İstifadəçi səhifənin aşağı hissəsində qeyd olunan tarixədək “İmzala və təqdim et” düyməsini sıxaraq ərizəsini imzalayıb təqdim etməlidir. Əks halda mənzil sifarişi üçün ərizə qəbul edilməyəcək və seçilmiş mənzil üzərində qoyulmuş məhdudiyyət götürülərək digər istifadəçilərə bu mənzili seçmək imkanı yaradılacaq (Şəkil 25).

8.2. İstifadəçi “İmzala və təqdim et” düyməsini sıxdıqdan sonra ərizənin uğurla təqdim edilməsi barədə bildiriş ekranda əks olunur. Həmin ərizəyə baxılmanın nəticəsinə dair 5 iş günü ərzində istifadəçiyə məlumat veriləcək (Şəkil 26).

8.3. İstifadəçi ərizəni təqdim etdikdən sonra “Elektron kabinetə qayıt” düyməsini sıxaraq öz elektron kabinetinə qayıda bilər (Şəkil 26).




Şəkil 26

8.4 Sifariş ərizəsi təqdim olunduqdan sonra istifadəçi “Seçdiyiniz mənzil” bölməsinə daxil olarkən təqdim etdiyi ərizəni görəcək (Şəkil 27, 28).




Şəkil 27

| | |
|---|---|
| Ərizəçi | MƏMMƏDOV FAZİL İLHAM OĞLU |
| Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi | AZE435236 |
| Şəxsiyyət vəsiqəsinin FİN kodu | 43F6SV |
| Elektron kabinet nömrəsi | 201705301138064K |
| Layihənin adı | Yasamal Yaşayış Kompleksi |
| Ünvan | Bakı şəhəri, Yasamal rayonu, Xarici Dairəvi yolu, 8 |
| Bina № | 1 |
| Giriş № | 1 |
| Mərtəbə | 4 |
| Mənzil № | 16 |
| Otaqların sayı | 2 |
| Təmir növü | 1 |
| Dövlət qeydiyyatı sənədinin nömrəsi | 1117055685 |
| Dövlət qeydiyyatı sənədi üzrə | 56.98 $m^2$ |
| Ödəniş üsülu | İpoteka krediti hesabına |
| Satış qiyməti | XXXX |
| Minimum ilkin ödəniş | XXXX |
| Əlavə endirim | |
| Vətəndaş mənzili Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun müddəti 30 ilədək olan güzəştli ipoteka krediti hesabına, minimal 10% ilkin ödənişlə, illik 4%-lə ala bilər. Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğin 10%-i həcmində əlavə endirim əldə edəcək. | |
| Güzəştli kredit | Qərar verilməyib |
| Ərizə tarixi | XXXX / XXXX |
| Satış təmsilçisi | XXXXXXXX<br>İş telefonu: XXXX<br>Mobil telefonu: XXXX |
| Notarius | Təyin olunmayıb |
| Rəsmiləşdirmə tarixi | Təyin olunmayıb |



Sənədlər

- Mənzilin planı
- Dövlət qeydiyyat sənədi
- Agent banklar

Şəkil 28

8.5. İstifadəçi “Seçimlər mərhələsi”ndə “Öz vəsaiti hesabına” ödəniş üsulunu seçdiyi təqdirdə, ərizəni təqdim etdikdən sonra onun elektron kabinetinə mənzil alqı-satqısının rəsmiləşdirmə tarixi və təyin olunmuş notariat kontoru ilə bağlı bildiriş göndərilir. İstifadəçi müvafiq müqavilənin rəsmiləşdirilməsi üçün həmin bildirişdə qeyd olunan tarixdə göstərilən notariusa müraciət etməlidir. Bunun üçün “Qəbul et” düyməsi sıxılmalıdır (Şəkil 29).



| | |
|---|---|
| Dövlət qeydiyyatı sənədinin nömrəsi | 1117055685 |
| Dövlət qeydiyyatı sənədi üzrə | 56.98 $m^2$ |
| Ödəniş üsülu | Öz vəsaiti hesabına |
| Satış qiyməti | XXXX |
| Əlavə endirim | XXXX |
| Əlavə endirimdən sonra mənzilin satış qiyməti | XXXX |
| Ərizə tarixi | XXXX/XXXX |
| Alqı-satqı müqaviləsinin bağlanması üçün | 15 iş günü qalıb |
| Satış təmsilçisi | XXXX XXXX<br>İş telefonu: XXXX<br>Mobil telefonu: XXXX |
| Notarius | XXXXXXXXXXXX<br>XXXXXXXXXXXXXXnotariat kontoru<br>Ünvan: Bakı şəh., XXXXXXXXXXXXXX<br>Əlaqə: XXXXXXXXX |
| Rəsmiləşdirmə tarixi | XXXX/XXXX Qəbul et Imtina et |

Şəkil 29

Həmin tarixdə müraciət edə bilmədikdə, istifadəçi elektron sistem vasitəsilə satış təmsilçisinə məlumat verməlidir (*Bunun üçün “İmtina et” düyməsi sıxılmalıdır*) (Şəkil 29). Bu halda digər rəsmiləşdirmə tarixi müəyyən olunaraq istifadəçiyə sistem vasitəsilə müvafiq bildiriş göndəriləcək. İstifadəçi rəsmiləşdirmə tarixini razılaşdırmaq üçün satış təmsilçisi ilə telefon vasitəsilə əlaqə saxlaya bilər.

8.6. İstifadəçi “Seçimlər mərhələsi”ndə “İpoteka krediti hesabına” ödəniş üsulunu seçdiyi təqdirdə, ərizəni təqdim edib müvafiq bildirişi əldə etdikdən sonra növbəti **10 iş günü** ərzində agent bankların birinə müraciət edərək kreditin verilməsinə razılığı almalıdır (Şəkil 30).



Vətəndaş mənzili Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun müddəti 30 ilədək olan güzəştli ipoteka krediti hesabına, minimal 10% ilkin ödənişlə, illik 4%-lə ala bilər. Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğin 10%-i həcmində əlavə endirim əldə edəcək.

| | |
|---|---|
| Güzəştli kredit | Qərar verilməyib |
| Agent banka yaxınlaşaraq kreditin verilməsinə razılığın alınması üçün | 10 iş günü qalıb |
| Ərizə tarixi | XXXX |
| Alqı-satqı müqaviləsinin bağlanması üçün | 15 iş günü qalıb |
| Satış təmsilçisi | XXXX<br>İş telefonu: XXXX<br>Mobil telefonu: XXXX |

Şəkil 30

8.7. Bank tərəfindən kreditin verilməsinə dair müsbət qərar qəbul edildikdə, istifadəçi elektron poçt və (və ya) sms, o cümlədən elektron kabinetinə göndərilən bildiriş vasitəsilə məlumatlandırılır. Sonra isə elektron kabinetində kreditin verilməsi barədə müsbət qərar, mənzil alqı-satqısının rəsmiləşdirmə tarixi, satış təmsilçisi və təyin olunmuş notariat kontoruna dair məlumatlarla tanış olmalıdır. Rəsmiləşdirmə tarixini razılaşdırmaq üçün istifadəçi satış təmsilçisi ilə telefon vasitəsilə əlaqə saxlaya bilər (Şəkil 31).

İstifadəçi müvafiq müqavilənin rəsmiləşdirilməsi üçün qeyd olunan tarixdə göstərilən notariusa müraciət etməlidir. Bunun üçün “Qəbul et” düyməsi sıxılmalıdır (Şəkil 31).



| | |
|---|---|
| Qərar verən bank | XXXX |
| Güzəştli kredit | Verilir |
| İlkin ödəniş | XXXX |
| Mənzilin endirimli qiyməti | XXXX |
| Kredit məbləği | XXXX |
| Ərizə tarixi | XXXX |
| Alqı-satqı müqaviləsinin bağlanması üçün | 10 iş günü qalıb |
| Satış təmsilçisi | XXXXXXXX<br>İş telefonu: XXXX<br>Mobil telefonu: XXXX |
| Notarius | XXXXXXXXXXXX<br>XXXXXXXXXXXX notariat kontoru<br>Ünvan: Bakı şəh., XXXXXXXXXXXX<br>Əlaqə: XXXXXXXX |
| Rəsmiləşdirmə tarixi | XXXXXXXX Qəbul et İmtina et |



Şəkil 31

8.8.1. Bank tərəfindən kreditin verilməsinə dair imtina qərarı qəbul edildikdə istifadəçi elektron poçt və (və ya) sms, o cümlədən elektron kabinetinə göndərilən bildiriş vasitəsilə məlumatlandırılır və seçdiyi mənzili öz vəsaiti hesabına əldə etmək niyyətini sistem vasitəsilə **3 iş günü ərzində** təsdiqləmək hüququna malikdir. Bunun üçün “Təsdiqlə” düyməsi sıxılmalıdır (Şəkil 32, 33).

**Qeyd (11): İstifadəçi mənzili öz vəsaiti hesabına əldə etmək niyyətini 3 iş günü ərzində təsdiq etmədikdə, onun ərizəsinin təmin edilməsi barədə qərar ləğv olunaraq, seçdiyi mənzil üzərinə qoyulmuş məhdudiyyət götürüləcək və digər istifadəçilərə bu mənzili seçmək imkanı yaradılacaq.**




Şəkil 32




Şəkil 33

8.8.2. Mənzil alqı-satqısının rəsmiləşdirmə tarixi, satış təmsilçisi və notariat kontoru təyin olunduqda istifadəçinin elektron kabinetinə yeni bildiriş göndərilir. İstifadəçi alqı-satqı müqaviləsinin rəsmiləşdirilməsi üçün həmin bildirişdə qeyd olunan tarixdə göstərilən notariusa müraciət etməlidir. Bunun üçün “Qəbul et” düyməsi sıxılmalıdır (Şəkil 34). Rəsmiləşdirmə tarixini razılaşdırmaq üçün istifadəçi satış təmsilçisi ilə telefon vasitəsilə əlaqə saxlaya bilər.




Şəkil 34

***Bu təlimatda qeyd olunan istifadəçinin adı, ünvanı, əlaqə vasitələri, şəxsiyyət vəsiqəsinin məlumatları və digər məlumatlar şərtidir.***